

**Dövlət başçısı cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə məsuliyyət hissi ilə yanaşılması və dəqiqliklə icra olunması, sakinlərlə görüşlər, səyyar qəbullar, işgüzar söhbətlər, bir sıra layihələrin müzakirələri hər birimizdə mənəvi rahatlıq yaradır, daha işıqlı sabahlara ümidləndirir. Bu inam isə uğur deməkdir.**

# Qədim Gəncə gündən-günə gözəlləşir



İndi Gəncənin ən gözəl vaxtıdır... Yazın gəlişi ilə hər yerdə canlanma var. Ətraf yaşıllığa bürünmüş, onların arasından boylanan al-əlvan gül-çiçəklər ətrafa xüsusi gözəllik verərək sakinləri riqqətə gətirir. Ana təbiətin səxavətindən pay almış Gəncə eli yaz aylarında bir başqa gözəllikdə olur.

Boş və bərbad ərazidə, az müddət içərisində alternativi olmayan, ümummilli liderin adına layiq, möhtəşəm Heydər Əliyev mərkəzi, ecazkar təbiətə malik istirahət parkı, girişdə möhtəşəm "Zəfər Tağı" ucaldılmışdır ki, buraya gələn qonaqlar və sakinlər bu açıq seyrangahdan şəhərin mənzərəsini seyr edir. Heydər Əliyev park-kompleksinin girişində inşa edilən "Zəfər Tağı"nın oturma sahəsi 1100 kv.m, hündürlüyü 40, uzunluğu 50, eni isə 22 metrdir. "Zəfər Tağı"nın mərkəzi keçid hissəsinin hündürlüyü 28 m, eni isə 18 metrə bərabərdir. Sütunların hündürlüyü 18, diametri isə 1,2 metrdir. Yeddimərtəbəli "Zəfər Tağı"nda iki ədəd lift quraşdırılıb. Zəfər muzeyi 630 kv. m, Zəfər kafesi 420 kv. m və baxış terrası 420 kv. m ərazini əhatə edir. Qeyd edək ki, "Zəfər Tağı"nda restoran, muzey və üst mərtəbədə seyrəngah fəaliyyət görtərir. Kənarlarda əkilən həmişəyaşıl ağaclar isə bu gözəlliyi tamamlayır. Əfsanəvi gözəlliyi ilə insanları məftun edən möcüzəli süni "göl", balaca fidanlar üçün fantastik əyləncə mərkəzləri yaradılmışdır.

Tək Gəncədən deyil, regionlardan bu istirahət məkanına on minlərlə sakin dincəlməyə gəlir, bu unikal mənzərəni seyr edir, məmnun qalır, ölkə başçısına minnətdarlıq edir. Ölkə başçısı Gəncə şəhərinə növbəti səfəri zamanı bunu çox böyük qiymətləndirmiş və demişdir ki, gözəl bir göl, amfiteatr yaradılıbdır. Yəni bu, doğrudan da bir möcüzədir. Gölün ətrafına nadir ağaclar və dekorativ kollar əkilmiş, yaraşıqlı oturacaqlarla təchiz olunmuşdur. Ecazkar gül kolları, yaşıl qazonların arasından boylanan al-əlvan gül-çiçəklər insanın yaşamaq əzmini daha da artırır.

Dünyanın beş ən böyük parkı arasında yer tutan, 450 hektar sahəsi olan möhtəşəm Heydər Əliyev park-kompleksinin ərazisində uzunluğu 354 metr, eni 170 metr, dərinliyi 3 metr olan bu əfsanəvi "göl"ün içərisinə ən bahalı balıq olan "Yapon çəkisi" buraxılmışdır. Sinirsiz böyümə potensialı ilə insanları heyrətə salan bu balıq hamını məftun edir. Balaca fidanlar onlara baxmaqdan yorulmaq bilmir, əfsanəvi balıqlarsa öz çevik və qeyri-adi hərəkətləri ilə onları özlərinə cəzb edir.

Qədimiliyini qoruyaraq, yeniləşən Gəncənin çay boyunca yüksək zövqlə yeni salınmış füsunkar bulvar kompleksi, fantastik uşaq əyləncə mərkəzləri, ecazkar təbiəti olan parkda yan-yana düzülmüş möhtəşəm musiqili analoqu olmayan fantan kompleksləri sakinlərdə, qonaqlarda iftixar hissi oyadır. Çox az bir zaman kəsiyində Gəncə şəhərinin 2016-cı ildə Avropa Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar şəhərdə 1,8 hektar torpaq sahəsində möhtəşəm "Avropa Gənclər Paytaxtı" parkı salınmış, mərkəzində hündürlüyü 5 metr olan əzəmətli "Gəncliyin qanadları" abidəsi ucaldılmış, parkın dizaynına xüsusi elementlər əlavə etməklə, zövqlü formalarla zənginləşdirilmişdir.

Nizami yurdunun cənnətməkan guşəsi - "Xan bağı" Gəncənin düz mərkəzində yerləşir. Bu yerlər ağac və gül cinslərinin növ zənginliyinə görə Gəncənin Nəbatat bağı sayıla bilər. Burada nadir tapılan bitki cinsləri - Himalay sidri, yapon əzgili, Eldar şamı, hind qozu, bambuk, sərv ağacları və s. qayğı ilə mühafizə edilir. Yeddi hektar sahəni əhatə edən "Xan bağı" zəngin təbiət muzeyi, gəncəlilərin sevimli mədəniyyət və istirahət parkıdır. Ölkə həyatının hər sahəsinə xüsusi diqqət yetirən Prezident İlham Əliyev "Xan bağı"nda olarkən demişdir ki, Xan bağı nəinki Gəncə üçün, bütün Azərbaycan üçün çox əziz və doğma bir yerdir. Sadəcə bağ deyil, bizim milli tarixi sərvətimizdir.

"Xan bağı" təkcə gözəllik məskəni deyil, həm də şəhərin saf iqliminin mərkəzidir. Yayda qızmar günəşin, qışda soyuq küləklərin qarşısını alır. İlin hər fəslində gözəl, günün hər çağında səfalı, cazibədardır. Gəncənin bu cənnətməkan guşəsi - "Xan bağı" bir sözlə, bu yerlərin əsl gözəllik simvoludur.

Bu yüksəliş, tərəqqi və abadlıq işlərindən ətraflı yazmaq üçün bir məqalə kifayət etməz, biz ancaq yazın ortasında Gəncə elində park-bulvar kompleksindən, sakinlərin istirahətinin təşkilindən yazmağı nəzərdə tutmuşuq. Bu sahədə görülən işlər sakinlərin rahatlığı, onların asudə vaxtlarının daha səmərəli təşkili məqsədi daşımaqla yanaşı, qədimliyini qoruyaraq müasirləşmiş Gəncənin gözəlliyinə əlavə çalarlar qatır. Mənbəyini əzəmətli Qafqaz dağlarından götürən Gəncə çayının sahilləri yazda xüsusilə gözəl olur. Təbiətin ilıq nəfəsi zirvəsi buludlara çatan, göydən nəm çəkən bu dağların qarını əridib Gəncə çayına qarışdıranda onun sahillərində füsunkar bir mənzərə yaranır. Əvvəlcə iti axınla dik yamaclar arasından sıyrılıb çıxan Gəncə çayı dar dərələrdə hirslə iri sal qayalara dəyib gurultu qoparır. Elə ki, dağlardan enən coşqun sular öz yatağına üz qoyur, Gəncə çayının da səsi dəyişib həzin bir nəğməyə çevrilir. Nəhayət, geniş düzənliyə çıxan çay yatağı boyunca qıvrıla-qıvrıla axıb lal axınla əzəmətli Ana Kürün görüşünə tələsir. Çayın sahillərində bitən salxım söyüdləri, dərələr boyunca uzanan zümrüd "meşələri", zərif çiçəkləri seyr etdikcə, ötüşən quşların bəstəsini dinlədikcə insanın duyğuları durulur, qəlbi həzin bir təbiət nəğməsinə köklənir.

Əzəmətli çayın ətrafında yaradılan ecazkar bulvar qədim Gəncə memarlığının ən müasir şəhərsalma və memarlıq nümunələri ilə zənginləşdirilmişdir. Çay boyunca yeni yaradılan bulvar kompleksində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, qazonlar arasından boylanan gül-çiçəklər ətrafa xüsusi təravət verir. Qeyri-adi oturacaqlar, quraşdırılmış analoqsuz fantastik fəvvarələr ərazinin gözəlliyini daha da artırır. Görülən bu işlər sakinlərin və şəhərə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir. Bu istirahət məkanının və guşələrin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması həm də Gəncənin daha da gözəlləşməsi işinin davamlı xarakter almasından və ümumilikdə şəhərin sosial-iqtisadi inkişafından xəbər verir.

Ölkə Prezidenti cənab İlham Əliyev növbəti səfəri zamanı "Gəncəçay" Park-bulvar kompleksi ilə tanış olarkən bu işlərə xüsusi dəyər vermişdir. Dövlətimizin başçısına məlumat verilmişdir ki, bulvar kompleksinin uzunluğu 1,2 kilometrdir. Ümumi sahəsi 34 hektar olan bu kompleksdə istirahət üçün hərtərəfli şərait yaradılıb, geniş işıqlandırma işləri görülüb, 15 fəvvarə və müxtəlif kompozisiyalı 10 heykəl quraşdırılıb. Çayın məcrasının hər iki tərəfində betondan ümumi uzunluğu 2,4 kilometr olan istinad divarı tikilib. Bulvarda Bayraq Meydanı, "Əli və Nino" kompleksi, Mətbuat evi, Kitab evi, Uşaq Əyləncə və Ticarət Mərkəzi, altımərtəbəli və yeddimərtəbəli üç yaşayış binası, müasir, dünya standartlarına uyğun üç kafe, restoran və kinoteatr, açıq havada fantastik attraksionlar və digər sosial obyektlər inşa edilmişdir ki, bunlara ecazkar bulvarın "mirvarisi" desək yanılmarıq. Burada 1,7 kilometr uzunluğunda velosiped yolu və velosiped dayanacağı inşa edilib, böyük monitor quraşdırılıb, bulvar kompleksində kanalizasiya, yağış suları ötürücüsü və içməli su təchizatı sistemi əsaslı şəkildə yenidən qurulub. Yüksək zövqlə inşa edilmiş kitab satışı mərkəzindən oxucular istədikləri kitabı alıb, açıq havada, zövqlə salınmış yaşıllıq zolağında mütaliə edirlər. Ümumiyyətlə, bu bulvar memarlığın ən son nailiyyətlərini özündə əks etdirir. Azərbaycanda ilk dəfə olaraq, Qurban Səidin müəllifi olduğu, "Əli və Nino" əsəri əsasında hündürlüyü 3,5 metr olan əzəmətli heykəl ucaldılmışdır ki, Azərbaycan və gürcü xalqlarının dostluğuna və məhəbbətinə ithaf edən bu abidə yalnız Çin, Fransa və Gürcüstanda var.

Əzəmətli Gəncə Dövlət Filarmoniyası, möhtəşəm Gəncə Dövlət Dram Teatrı və Gəncə MALL Ticarət Mərkəzi, yaraşıqlı yeraltı keçidlər, yeni ecazkar 5 ulduzlu otel fəaliyyət göstərir. Gəncədəki Yeni ASAN Mərkəzinin açılışı şəhər sakinləri və ətraf rayonların əhalisinə yeni xidmət göstərməyə imkan yaratmışdır. Onu xüsusilə qeyd etmək lazımdır ki, "ASAN xidmət" Mərkəzinin işçiləri əsasən şəhid ailəsi üzvləri və qazilərdir. "Azərbaycan Dəmir Yolları" QSC-nin Gəncə lokomotiv deposu istismara verilib və burada 75 nəfər işlə təmin olunmuşdur.



Gəncə Dövlət Filarmoniyasının memarlıq üslubu sözün əsl mənasında, şəhərin zəngin arxitekturası ilə həmahənglik təşkil edərək unikal bir mənzərə yaratmışdır. 1,4 hektar ərazidə inşa olunan bu möhtəşəm kompleksdə 1200 nəfərlik konsert zalı, iki kinoteatr, açıq havada estrada meydanı, kafe, restoran, 200 avtomobil üçün 2 mərtəbəli yeraltı dayanacaq və digər xidmət sahələri ilə ən yüksək səviyyədə xidmət göstərir. Gəncə Dövlət Dram Teatrının yeni binasında 478 yerlik böyük tamaşaçı zalı, 22 tamaşaçı yerlik lojalar və 120 yerlik kiçik tamaşaçı zalı var. Yeddimərtəbəli binada, həmçinin iki zaldan, 135 eksponat və rəsm əsərlərindən ibarət Gəncə Teatr Muzeyi, zəngin kitabxana, xoreoqrafiya zalı, qrim otaqları, mehmanxana, kafe və digər zəruri infrastruktur yaradılıb. Bir sözlə, teatrın yeni binasında tamaşaların nümayişi üçün müasir texniki şərait təmin edilib, yaradıcı heyətin məşqləri ilə bağlı bütün məqamlar nəzərə alınıb. 8 mərtəbəli Gəncə MALL-un 3 mərtəbəsi yeraltı avtomobil dayanacağıdır. Burada əyləncə mərkəzləri, supermarket, kinoteatrlar fəaliyyət göstərir, dünyanın brend məhsulları təklif olunur.

Gəncəyə dünyanın hər yerindən saysız-hesabsız qonaqlar, turistlər gəlir, onlar yüksək qonaqpərvərliklə qarşılanır, xoş təəssüratla ayrılırlar.

Hazırda yeni möhtəşəm layihələr icra olunmaqdadır. Belə ki, Gəncə İdman Sarayında tikinti işləri gedir. Bu, Azərbaycanda ən böyük idman sarayı olacaq. Saray gəncəlilərə edilən bir hədiyyədir.

Bəli, qədim Gəncənin bütün sahələrindəki inkişaf və tərəqqi, insanların yüksək əhvali-ruhiyyəsi, firavanlığı ölkə Prezidenti cənab İlham Əliyevin şəhərimizə və onun sakinlərinə daim göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**





